Vətəndaşların seçki hüququnu pozan hərəkətlərdən (hərəkətsizliklərdən) və qərarlardan şikayətlərin araşdırılması məqsədi ilə Mərkəzi Seçki Komissiyasının nəzdində yaradılmış ekspert qrupunun üzvü Qabil Orucovun 2009-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində V.Əliyev və digərlərinin Mərkəzi Seçki Komissiyasına daxil olmuş 563 saylı müraciəti üzrə

# RƏYİ

Bakı şəhəri 07 yanvar 2010-cu il

Mən, ekspert qrupunun üzvü Qabil Orucov 2009-cu ilin dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində 75 saylı Lənkəran-Masallı seçki dairəsi üzrə Mahmudavar bələdiyyəsinə keçirilmiş seçkilərlə əlaqədar V.Əliyev və digərlərinin Mərkəzi Seçki Komissiyasına 07 yanvar 2010-cu ildə daxil olmuş 563 saylı müraciətini araşdıraraq müəyyən etdim:

Müraciət Seçki Məcəlləsinin və Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimatın tələblərinə uyğun tərtib edildiyindən və nəzərdə tutulan müddətdə verildiyindən, araşdırmaya qəbul edilmişdir.

2009-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində V.Əliyev və digərləri 2010-cu il yanvarın 07-də Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına müraciət edərək, 75 saylı Lənkəran-Masallı seçki dairəsinin dairə seçki komissiyasının hərəkətsizliyindən şikayət etmişdir. O, şikayətə səbəb kimi Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasına daxil olmuş və aidiyyəti üzrə baxılması üçün həmin dairə seçki komissiyasına göndərilmiş müraciətinə baxılmamasını göstərmişdir.

Müraciət tərəfimdən araşdırılmış və dairə seçki komissiyası tərəfindən təqdim olunan sübutlara əsasən dairə seçki komissiyasının heç bir hərəkətsizliyə yol verməməsi təsdiqini tapmışdır. Belə ki, 75 saylı Lənkəran-Masallı seçki dairəsi dairə seçki komissiyasının 29 dekabr 2009 -cu il tarixli qərarı ilə V.Əliyev və digərlərinin dairə seçki komissiyasına daxil olmuş qeyd olunan müraciəti ilə bağlı qərar qəbul edilmiş, qərarın surətinin vətəndaşlara çatdırılması üçün müvafiq tədbirlər görülmüşdür.

Yuxarıda göstərilənləri əsas götürərək, Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimatın" 1, 2, 4, 6 və 7-ci bəndlərinə əsasən rəyə gəldim:

1. Vətəndaş V.Əliyev və digərlərinin 07 yanvar 2010-cu il tarixli 563 saylı müraciəti əsassız olduğundan təmin edilməsin.

2. Qərar 24 saat müddətində Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının internet səhifəsində yerləşdirilsin.

Ekspert qrupunun üzvü Qabil Orucov